# Azərbaycan Xalq Cümhuriyyətinin maarifçilik ənənələri davam etdirilir

*Tariximizin milli qürur salnaması olan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) Şərqdə ilk demokratik respublikanın əsasını qoymaqla yanaşı, milli dirçəlişin, milli ideyanın, təfəkkürün, milli-mənəvi yüksəlişin, maarifçiliyin ümumdövlət siyasətinə çevrilməsində mühüm rol oynamışdır. 1918-1920-ci illərdə ölkəmizin ictimai, mədəni, ədəbi həyatında əhəmiyyətli dəyişikliklər baş vermişdir. Xalq Cümhuriyyətinin qurucuları yüksək təhsil və elmə, intellektə malik, milli ideya daşıyıcıları, ictimai fikir sahibləri olduqlarından milli düşüncənin və demokratik dəyərlərin qorunmasında, milli dövlətçiliyin formalaşmasında əvəzsiz xidmətlər göstərmişlər.*

Xalq Cümhuriyyəti hökuməti milli-mənəvi dəyərlərimizin, ədəbiyyat və incəsənətin, elm və təhsilin, mədəniyyətin, maarifçiliyin inkişafında misilsiz xidmətlər göstərmişdir. Azərbaycanda maarifçiliyin təməlini qoyan görkəmli şəxsiyyətlər- Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir və digər demokratik milli düşüncə sahiblərinin davamçıları olan Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşovun qorxmaz, fədakar fəaliyyəti sayəsində Azərbaycanda milli məfkurə, milli ziyalı nəsli yaranmış və inkişaf etmişdir.

Müstəqil Azərbaycanda 80-dən artıq qəzet və jurnalın dərc olunması təkcə maarifçilik ideyalarının atributu deyil, həm də demokratik ictimai fikrin, plüralizmin təntənəsi idi. Xalq Cümhuriyyəti fəaliyyətinin ilk günlərindən müstəqil Azərbaycanın təhsil konsepsiyasının hazırlanması və həyata keçirilməsi ilə bağlı köklü islahatlar aparmışdır.

1918-ci il iyunun 30-da respublikamızda xalq maarifinin, milli təhsil sisteminin yaradılması, mövcud məktəblərin milliləşdirilməsi və yeni təhsil islahatlarının aparılması məqsədilə Xalq Maarif Nazirliyinin yaradılması qərara alındı.

Xalq Maarif Nazirliyi təhsilin forma və məzmunun dəyişdirilməsi, milli təhsil standartlarının hazırlanması istiqamətində sistemli islahatlar həyata keçirdi. Təhsil sistemi milliləşdirildi, təhsilin ali, orta və ibtidai məktəb pillələri üzrə yaradılması və idarə olunması təmin edildi.1918-1919-cu illərdə Gəncə Müəllimlər Seminariyası milliləşdirildi, Bakıda Darülmüəllimin və Darülmüəllimat, Şəki Darülmüəllimi açıldı, Zaqatala, Ağdam və Şuşada bu tipli müəssisələrin yaradılması qərara alındı. Savadsızlığın ləğvi üçün bölgələrdə təhsilli kadrların köməyi ilə dərnəklər və kurslar təşkil olundu. Bakı, Gəncə, Şuşa, Şəki, Zaqatala və Qazaxda yaşlılar üçün xüsusi kurslar açıldı. Azərbaycanda mövcud müəllim kadrları az olduğundan Türkiyədən müəllim kadrları dəvət olundu.

Hökumətin 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi ibtidai tədris müəssisələrində təhsilin ana dilində aparılmasında, təhsilin tamamilə yenidən qurulmasında, məktəblərin milliləşdirilməsində, eyni zamanda, Avropa təhsil sisteminə inteqrasiyasında mühüm əhəmiyyət kəsb etdi. Aparılan köklü islahatlar savadsızlığın aradan qalxmasında, məktəblərə cəlb olunan azərbaycanlı şagird və tələbələrin sayının artmasında mühüm rol oynadı. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin maarifçilik siyasəti sahəsində gördüyü ən səmərəli işlərdən biri milli ali məktəblərin yaradılması oldu. Nazirlik Parlament və Nazirlər Kabineti qarşısında Bakı Dövlət Universiteti, Əkinçilik İnstitutu və Dövlət Konservatoriyasının təsis edilməsi barədə məsələ qaldırdı. 1919-cu il sentyabrın 1-də Parlamentin qəbul etdiyi qərara əsasən, Bakı Dövlət Universitetinin fəaliyyətə başlaması təmin olundu. Noyabrın 15- tədris prosesinə başlanılan universitetdə tarix, filologiya, fizika, riyaziyyat, hüquq və tibb fakültələri üzrə kadr hazırlandı. Digər ali məktəblərin yaradılmasına isə vaxt imkan vermədi.

**"Xalqımız Azərbaycan Xalq Cümhuriyyəti dövründə çox şərəfli bir yol keçmişdir. Bu yol da ondan ibarətdir ki, xalqımızın mədəni, təhsil səviyyəsi artmış, mədəniyyətimiz yüksəlmiş, elmimiz, böyük iqtisadi potensialımız yaranmışdır"**

**Ümummilli lider Heydər Əliyev**

Təhsilin milliləşdirilməsində ən mühüm uğurlardan biri millətpərvər ziyalı, böyük pedaqoq Firudin bəy Köçərlinin Qori Müəllimlər Seminariyasındakı fəaliyyəti olmuşdur. Onun təşəbbüsü ilə Seminariya 1918-ci il sentyabrın 1-də Azərbaycan dilində dərs vəsaitləri və tədris avadanlıqları ilə təmin olunmuş, sentyabrın 17-dən isə həmin dərsliklər əsasında tədris həyata keçirilmişdir. Firudin bəy Köçərli Qori Seminariyasında milli kadrların tədris işinə cəlb edilməsi üçün də böyük əmək sərf etmiş və nəticədə həmin ali təhsil müəssisəsinin məzunlarının müəllim kimi çalışmasına nail olmuşdur. Görkəmli elm xadimi F.B.Köçərli Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin Gürcüstandan Qazaxa köçürülməsini təşkil etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti peşəkar milli kadrların hazırlanması üçün Türkiyə və Avropa dövlətləri ilə əməkdaşlıq edirdi. Müasir biliklərə yiyələnən peşəkar kadrların hazırlanması məqsədilə Türkiyə, Rusiya, Avropa ölkələrinin tanınmış universitetlərində ali təhsil almaq üçün 100 tələbə seçilərək göndərildi. Həmin tələbələrin əksəriyyəti Cümhuriyyətin süqutundan sonra, sovet hakimiyyəti dövründə təhsillərini davam etdirərək vətənə dönmüş, lakin müstəqillik idealları ilə yaşadıqlarına görə, 1930-cu ilərdə casusluq ittihamı ilə həbs edilərək ağır repressiyalara məruz qalmışdır. Sovet Azərbaycanında bolşevik terrorunu hiss edən digər tələblər isə Almaniya, Fransa, Belçika, Türkiyə və digər ölkələrdə qalaraq millət və vətən sevdası ilə yaşamışlar.

Cümhuriyyət dövründə təhsil siyasətinin əsas istiqamətlərindən biri də dövlətin hərbi kadrlara olan ehtiyacının ödənilməsi məqsədilə həm yerli hərbi məktəblərin açılması, həm də xarici ölkələrin nüfuzlu hərbi tədris müəssisələrində oxumağa göndərilməsindən ibarət idi. Görkəmli generallarımız Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Həbibbəy Səlimov və digər peşəkar hərbçilərimizin rəhbərliyi ilə Azərbaycanda yüksək döyüş qabiliyyətli, hərbi mütəxəssislərin hazırlanması üçün tədbirlər görülmüşdür.

Təhsil və maarif sahəsində qısa zamanda əldə olunmuş uğurları iftixar hissi ilə qarşılayan böyük öndər Məmməd Əmin Rəsulzadə deyirdi ki, "Şərq ölkələri arasında ilk türk dramaturqu azərbaycanlı, ilk türk bəstəkarı azərbaycanlı, məzhəb uzlaşmazlığını ilk ortadan qaldıran yenə azərbaycanlı, əlifba islahatını ilk düşünən azərbaycanlı, nəhayət, islam aləmində ilk dəfə cümhuriyyət elan edən də azərbaycanlıdır".

1920-ci ilin aprel 28-də XI qırmızı ordunun Azərbaycanı işğal etməsi nəticəsində Xalq Cümhuriyyəti süquta uğradı, uğurlu təhsil islahatları həyata keçirməkdə inadlı və qətiyyətli olan müstəqil respublikamızın işləri yarımçıq qaldı. Azərbaycanın milli intibah, milli özünüdərk ideyaları sovet hakimiyyəti illərində unudulsa da, Cümhuriyyətin əsasını qoyduğu ənənələr ulu öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlməsindən sonra davam etdirildi. Ümummilli liderin uzaqgörən siyasəti nəticəsində 1970-85-ci illərdə keçmiş keçmiş ittifaq respublikalarının 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı göndərildi və lazımi ixtisaslara yiyələni. Həmin dövrdə əldə edilmiş nailiyyətlər gələcəkdə müstəqil Azərbaycan dövlətinin qurulması üçün əsaslı zəmin yaratdı.

Ulu öndərin siyasi varisi, Prezident İlham Əliyev ölkənin davamlı və sabit inkişafının əsas amili kimi, təhsilin və elmin səviyyəsinin yüksəldilməsi, gənclərin intellektual səviyyəsinin artırılmasına, peşəkar kadr institutunun formalaşdırılmasına əsaslanan siyasət yürütməkdədir. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun və Elmin İnkişafı Fondunun yaradılması biliklərə əsaslanan yeni iqtisadiyyatın qurulması, "qara qızıl"ın insan kapitalına çevrilməsinə mühüm töhfəsini verməkdədir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi və icrası, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" layihəsi çərçivəsində 7000-ə yaxın gəncin qabaqcıl Avropa ölkələrinin təhsilini mənimsəməsi müasir şəraitdə dövlətimiz üçün güclü milli kadr potensialının yaradılması deməkdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin yüksək diqqət və qayğısının nəticəsində həmin Dövlət Proqramı əsasında Böyük Britaniyada ali təhsil almış, peşəkar mütəxəssis kimi vətənə dönmüşəm. Əminliklə deyə bilərəm ki, həmin gənc və istedadlı kadrlar öz bilik və bacarıqlarını çalışdıqları sahələrdə uğurla tətbiq edəcək, ölkəmizin inkişafına öz layiqli töhfələrini verirlər.

Ölkəmizdə təhsilin inkişafında UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın də xidmətləri əvəzsizdir. Onun müəllifi olduğu "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi keyfiyyətli təhsil strategiyasının mühüm tərkib hissəsinə çevrilmişdir. Layihə çərçivəsində həyata keçirilən proqramların icrası ölkə miqyasında müasir standartlara cavab verən təhsil komplekslərinin yaradılmasına, təhsilin maddi-texniki bazasının yaxşılaşdırılmasına, tədrisin səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur.



Hazırda Azərbaycan təhsili inkişafca yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 11-də növbəti dəfə dövlət başçısı seçilməsi bütün sahələrdə olduğu kimi, təhsildə də islahatların inamla davam etdirilməsi üçün güclü zəmin yaradır. Cənab Prezident aprelin 18-də keçirilən andiçmə mərasimində bəyan etmişdir ki, ölkəmizin gələcəyi elmi-texnoloji inkişafla bağlıdır: *"Məhz buna görə biz təhsilə, elmə diqqət veririk, növbəti illərdə daha da böyük diqqət göstərməliyik. Çünki hər bir dövlətin uğurlu inkişafı texnoloji təminata əsaslanır. Biz ən müasir texnologiyaları Azərbaycanda tətbiq etməliyik. Buna nail olmaq üçün bizdə hazırlıqlı kadr potensialı olmalıdır, bu istiqamətdə bundan sonrakı illərdə də işlər görüləcəkdir".*

**Bütün bunlar bir daha göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin mütərəqqi təhsil ənənələri yaşayır, ölkəmizdə biliklərə əsaslanan innovasiyalı cəmiyyət quruculuğu prosesi keyfiyyətcə yeni mərhələdə uğurla davam etdirilir.**

**Babək MƏMMƏDZADƏ,**
**YAP Gənclər Birliyinin İdarə Heyətinin üzvü.**